**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyində**
*17 dekabr 2010-cu il tarixli 4080 şəhadətnamə*
*№-si ilə dövlət qeydiyyatına alınmışdır.*

**Azərbaycan Respublikasının**
**Maliyyə Nazirliyinin**
*15 dekabr 2010-cu il tarixli*
*İ-211 №-li əmri ilə təsdiq edilmişdir.*

# İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsi üzrə sığorta məbləğinin müəyyənləşdirilməsi

# Q A Y D A S I

**İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsi üzrə sığorta məbləğinin müəyyənləşdirilməsi**

**Q A Y D A S I**

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında» Azərbaycan Respublikası Qanununun 14.4-cü maddəsinə əsasən hazırlanmışdır və həmin Qanunun məqsədləri üçün icbari sığorta müqaviləsi üzrə sığorta məbləğinin hesablanmasınını tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə edilir:

1.2.1. aktuar metodları – sığorta tariflərinin, sığorta ehtiyatlarının və sığorta ödənişlərinin hesablanması zamanı aktuari tərəfindən tətbiq edilən iqtisadi-riyazi hesablama metodları;

1.2.2. gətirilmiş gözlənilən dəyər – faiz dərəcəsi və sığorta olunan şəxsin yaşı nəzərə alınmaqla hesablanan (diskontlaşdırılan) və gələcək tarixlərə aid olan məbləğlərin icbari sığorta müqaviləsi bağlanan tarixə gətirilən gözlənilən (ehtimal olunan) dəyəri;

1.2.3. prenumerando annuitet – ödənişləri dövrün əvvəlində həyata keçirilən annuitet.

## 2. Sığorta məbləğinin müəyyənləşdirilməsi

2.1. Sığortaçı sığorta məbləğini hesablayarkən illik faiz dərəcəsini 8 % götürməlidir.

2.2. $N$ sayda sığorta olunan üçün bağlanmış İcbari sığorta müqaviləsi üzrə $i$-ci sığorta olunana münasibətdə sığorta məbləği aşağıdakı düsturla hesablanır:

$$SM_i = 1{,}15 \times \ddot{a}_{x_i}^{(12)} \times P_i$$

*Burada:*

$SM_i$ – $i$-ci sığorta olunana münasibətdə sığorta məbləği;

$x_i$ – $i$-ci sığorta olunanın yaşı;

$P_i$ – $i$-ci sığorta olunanın qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanan bir illik əmək haqqı fondudur.

$\ddot{a}_{x_i}^{(12)}$ –yaşı $x_i$ olan şəxs üçün aylıq ödənişi $\frac{1}{12}$-ə bərabər olan prenumerando aylıq anuitetin gətirilmiş gözlənilən dəyəri.

2.3. İcbari sığorta müqaviləsi üzrə ümumi sığorta məbləği aşağıdakı düsturla hesablanır:

$$SM = \sum_{i=1}^{N} SM_i$$

*Burada:*

$SM$ – ümumi sığorta məbləği;

$N$ – sığorta olunanların sayı;

$i$ – cəmləmə indeksi;

$SM_i - i$ -ci sığorta olunana münasibətdə sığorta məbləği.

**Misal:**

Sığortaçı: ABC sığorta şirkəti
Sığortalının adı: XYZ təşkilatı

*Sığortala olunanlar:*

| *Sıra indeksi* ($i$) | *Ad və soyadı* | *Yaşı* ($x_i$) | *İllik əmək haqqı fondu* ($P_i$) | *prenumerando aylıq anuitetin g. g. d.* ($\ddot{a}_{x_i}^{(12)}$) |
|---|---|---|---|---|
| 1 | 1-ci sığorta olunan | 35 | 2400 | 11,9136 |
| 2 | 2-ci sığorta olunan | 45 | 3000 | 11,0151 |
| 3 | 3-cü sığorta olunan | 55 | 3600 | 9,7003 |

1-ci sığorta olunan üçün

$$SM_1 = 1{,}15 \times 2400 \times 11{,}9136 = 32881{,}536$$

2-ci sığorta olunan üçün

$$SM_2 = 1{,}15 \times 3000 \times 11{,}0151 = 38002{,}095$$

3-cü sığorta olunan üçün

$$SM_3 = 1{,}15 \times 3600 \times 9{,}7003 = 40159{,}242$$

İcbari sığorta müqaviləsi üzrə ümumi sığorta məbləği aşağıdakı düsturla hesablanır:

$$SM = \sum_{i=1}^{N} SM_i = SM_1 + SM_2 + SM_3 = = 33881{,}536 + 38002{,}095 + 40159{,}242 = 112042{,}873 \mathit{manat}$$

Beləliklə müqavilə üzrə sığorta məbləği 112 042,873 manat olur.